TKTA

Təhsildə Keyfiyyət Təminatı Agentliyi

# 2025-ci ilin III rübü üzrə
# ELEKTRON BÜLLETEN

# Mündəricat


| | |
|---|---|
| 3-4 | Xarici kvalifikasiyaların tanınması |
| 5-6 | Qeyri-formal və informal təhsilin tanınması |
| 7 | TKTA əməkdaşları SEQA-ESG2 layihəsi çərçivəsində heyətin mübadiləsində |
| 8 | Milli Aviasiya Akademiyasında “Özünütəhlil Hesabatının hazırlanması” mövzusunda təlim |
| 9 | Ali təhsildə institusional və proqram akkreditasiyası üzrə yeni meyarların müzakirəsi |
| 10 | Media nümayəndələri üçün brifinq |
| 11 | Ali təhsildə keyfiyyət təminatı üzrə II ADA Simpoziumu |
| 12 | İkitərəfli görüşlər |
| 12-14 | Media ilə iş və vətəndaş məmnunluğu |
| 15-19 | Ekspert rəyi |

“Xarici dövlətlərin ali təhsilə aid kvalifikasiyalarının tanınması Qaydaları”nın 6.2-ci bəndinə əsasən, “Müəllimlik”, “Mühəndislik” və “Hüquqşünaslıq” ixtisasları üzrə ərizəçinin Elm və Təhsil Nazirliyinin tabeliyində fəaliyyət göstərən Təhsildə Keyfiyyət Təminatı Agentliyinin (TKTA) təqdim etdiyi siyahı əsasında Dövlət İmtahan Mərkəzinin (DİM) təşkil etdiyi imtahanda müvəffəqiyyət qazanması (keçid balını toplaması) tələb olunur.

Bildiririk ki, 29 sentyabr 2025-ci il tarixində DİM tərəfindən keçirilmiş imtahanda iştirak etmək üçün 186 nəfər namizəd qeydiyyatdan keçib, bunlardan 144 nəfəri imtahanda iştirak edib, yalnız 52 nəfəri keçid balını toplayıb. 14 ixtisas üzrə müvəffəqiyyət göstəricisi 36% təşkil edib. Sınaq imtahanında iştirak edən və keçid balını toplayan namizədlərin ixtisaslar üzrə statistik məlumatını keçid vasitəsilə əldə edə bilərsiniz. İmtahanda ixtisaslar üzrə müraciət sayına uyğun olaraq, ən çox imtina alan 4 ixtisasın TKTA tərəfindən ölkələr üzrə təhlili aparılıb. Bu təhlillərin nəticələri aşağıdakı qrafiklərdə təqdim olunur:






# Xarici kvalifikasiyaların tanınması

## Ən çox müraciət edilən 10 ATM üzrə göstəricilər




## Rusiya Federasiyasına dair ən çox müraciət edilən 9 ali təhsil müəssisəsi üzrə göstəricilər




## Ukraynaya dair ən çox müraciət edilən 6 ali təhsil müəssisəsi üzrə göstəricilər




## Peşə imtahanı üzrə 4 ixtisasa (Hüquqşünaslıq, Yanğın təhlükəsizliyi mühəndisliyi, İbtidai sinif müəllimliyi, Həyat fəaliyyətinin təhlükəsizliyi mühəndisliyi) dair DİM imtahan nəticələri

### Peşə imtahanında 4 ixtisasa dair iştirak etmiş namizədlərin ölkələr üzrə uğurlu və uğursuz nəticələrinin göstəricilər



## Qeyri-formal və informal təhsilin tanınması

2025-ci ilin III rübü ərzində TKTA tərəfindən Qeyri-formal və informal təhsilin tanınması (QFİTT) istiqamətində formal təhsilə çıxış imkanları məhdud olan vətəndaşların “Əməliyyatçı-mühasib”, “Dərzi”, “Dayə” “Avtomobil mühərriklərinin yığıcısı”, “Qənnadçı, şirniyyatçı”, “Bərbər” və “Bərbər-vizajist-manikürçü” peşə ixtisasları üzrə qeyri-formal və informal yollarla əldə etdikləri bilik, bacarıq, səriştə və təcrübənin qiymətləndirilməsi və tanınması həyata keçirilib.










Qeyd edək ki, QFİTT üzrə ümumilikdə 75 nəfər ilkin mərhələ olan nəzəri imtahanlara cəlb edilib, onlardan 62 nəfəri məqbul, 13 nəfəri isə qeyri-məqbul nəticə göstərib. Növbəti mərhələdə 57 nəfər praktiki imtahanlarda iştirak edib, onlardan 52 nəfəri məqbul, 5 nəfəri isə qeyri-məqbul nəticə göstərib. Yekunda 52 nəfər vətəndaş peşə sənədi əldə edib, 6 nəfər isə praktiki imtahanı gözləmə mərhələsindədir.

Cari rübdə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 13 dekabr 2023-cü il tarixli 942s nömrəli Sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində 2024–2026-cı illərdə əhalinin məşğulluq imkanlarının artırılmasına dair Tədbirlər Planı”nın “1.5. Məskunlaşması nəzərdə tutulan şəxslərin qeyri-formal və informal təhsil vasitəsi ilə əldə edilmiş bacarıqlarının qanunvericiliklə müəyyən olunmuş qaydada tanınması sahəsində işlərin görülməsi” bəndinə uyğun olaraq, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin maliyyə dəstəyi ilə “Qənnadçı, şirniyyatçı”, “Dərzi”, “Bərbər-vizajist-manikürçü” və “Bərbər” peşə ixtisasları üzrə regionlardan müraciət edən 50 nəfər ərizəçinin bilik və bacarıqlarının qiymətləndirilməsi və tanınması məqsədilə müvafiq olaraq Bakı və Bərdə şəhərlərində imtahanlar həyata keçirilib. Qiymətləndirilmə üzrə ümumi nəticələr aşağıda təqdim olunur:

- Nəzəri imtahan mərhələsində 46 nəfər iştirakçıdan 34-ü (73,9%) məqbul, 12-si (26,1%) isə qeyri-məqbul nəticə göstərib.
- Praktiki imtahan mərhələsində isə 34 nəfərdən 29-u (85,3%) məqbul, 5-i (14,7%) isə qeyri-məqbul nəticə əldə edib.

**Nəzəri imtahan 46 nəfər**



**73,9 %**

məqbul



**26,1 %**

qeyri-məqbul

**Praktiki imtahan 34 nəfər**



**85,3 %**

məqbul



**14,7 %**

qeyri-məqbul

## Qeyri-formal və informal təhsilin tanınması

30 sentyabr 2025-ci il tarixində, “Accelerated Career Academy” tərəfindən həssas qrupdan olan məcburi köçkünlərin peşə bacarıqlarının inkişaf etdirilməsi və gəlir əldə etmə imkanlarının artırılmasına dəstək göstərərək əmək bazarına inteqrasiyalarını təmin etmək məqsədilə keçirilən **“Azərbaycanda məcburi köçkünlərin həyat şəraitinin yaxşılaşdırılması”** layihəsinin yekunlaşması ilə bağlı tədbir keçirilib və layihə iştirakçılarına müvafiq sertifikatlar təqdim edilib. Layihə Qaçqın və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin təşəbbüsü ilə həyata keçirilib. Tədbirin əsas məqsədi layihə iştirakçılarının əldə etdiyi nailiyyətləri ictimaiyyətlə bölüşmək olub.

Tədbirdə Qaçqın və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin nümayəndələri, Türkiyə Respublikası Mesleki Yeterlilik Kurumunun Lonca Belgelendirme A.Ş-nin, NextGen Consulting MMC-nin, eləcə də, TKTA rəhbərliyi iştirak ediblər. Tədbirdə çıxış edən TKTA-nın İdarə Heyəti sədrinin müavini Kamran Rəsulov son illərdə dövlətin həyata keçirdiyi sosial layihələrin, beynəlxalq tərəfdaşlarla əməkdaşlığın, peşə hazırlığı və təlim imkanlarının genişləndirilməsinin məcburi köçkünlərin həyatında mühüm rol oynadığını vurğulayıb. Tədbirdə layihə çərçivəsində təlimləri uğurla başa vuran iştirakçılara sertifikatlar təqdim olunub. Bu sertifikatlar məcburi köçkünlərin peşə biliklərinin gücləndirilməsi və onların əmək bazarına çıxış imkanlarının artırılması istiqamətində mühüm addım kimi dəyərləndirilib.







## TKTA əməkdaşları SEQA-ESG2 layihəsi çərçivəsində heyətin mübadiləsində

Təhsildə keyfiyyət təminatı sahəsində həyata keçirilən mübadilə proqramları keyfiyyət təminatı agentliklərinə beynəlxalq təcrübəni öyrənmək və bu təcrübələri müvafiq qaydada milli sistemə tətbiq etmək imkanı yaradır. Bu proqramlar təhsildə keyfiyyət təminatı sisteminin qlobal standartlara uyğun şəkildə inkişaf etdirilməsi, davamlı peşəkar inkişafın təmin olunması, beynəlxalq etimadın və əməkdaşlığın güclənməsi, eləcə də keyfiyyət mədəniyyətinin yayılması üçün mühüm vasitədir.

TKTA əməkdaşlarının Avropanın qabaqcıl keyfiyyət təminatı agentliklərinin təcrübəsini öyrənmək üçün mübadilə proqramlarında iştirakı mühüm fəaliyyət kimi qiymətləndirilir və bu məsələyə böyük diqqət yetirilir. Belə proqramlar əməkdaşların peşəkar inkişafına, bilik və bacarıqlarının artırılmasına mühüm dəstək göstərməklə yanaşı, TKTA-nın Ali Təhsilin Keyfiyyət Təminatı üzrə Avropa Assosiasiyaya (ENQA) tamhüquqlu üzvlüyü istiqamətində görülən işlərə də əhəmiyyətli töhfə verir.

## Mübadilə ilə bağlı əməkdaşların təəssüratları:





TKTA-nın Akkreditasiya və lisenziya şöbəsinin əməkdaşları cari ilin 9-11 iyul tarixlərində Macarıstanın Budapeşt şəhərində Macar Akkreditasiya Komitəsində (MAB) SEGA-ESG II layihəsi çərçivəsində heyətin mübadiləsi proqramında iştirak ediblər. Qeyd edək ki, Avropanın ilk akkreditasiya qurumlarından biri olan MAB Macarıstanda ATM-lərin tədris və müvafiq elmi-tədqiqat fəaliyyətlərinin, eləcə də daxili keyfiyyət təminatı sistemlərinin xarici qiymətləndirilməsini həyata keçirən yeganə milli qurumdur.

Mübadilə poqramı MAB-nın strukturu və fəaliyyət istiqamətləri ilə yaxından tanış olmaq, xarici keyfiyyət təminatı sisteminin təşkili, həmçinin daxili və xarici maraqlı tərəflərin bu prosesə necə səmərəli şəkildə cəlb olunduğunu öyrənmək üçün geniş imkanlar yaradıb.

İntensiv, faydalı və interaktiv keçən mübadilə proqramı müddətində, əsasən institusional akkreditasiya prosesi və onun mərhələləri, beynəlxalq akkreditasiyanın həyata keçirilməsi prosedurları, ENQA-ya üzvlüklə bağlı hazırlıq prosesi, akkreditasiya prosesinə ekspertlərin cəlb edilməsi və müvafiq təlimlərin keçirilməsi, ATM-lərə metodoloji dəstək, tematik təhlil, resurslar və s. ilə bağlı MAB təcrübəsi öyrənilib.

Qeyd edək ki, mübadilə proqramında müzakirə edilən mövzular SEQA-ESG II layihəsinin əsas məqsədləri ilə birbaşa əlaqəlidir. MAB nümayəndələri ilə aparılan müzakirələr zamanı metodoloji yanaşmalar və maraqlı tərəflərin faydalı iştirakı baxımından prosesləri təkmilləşdirmək üçün praktik modellər müzakirə edilib. Bundan əlavə, MAB-ın ENQA-ya üzvlüyü ilə bağlı ENQA tərəfindən təqdim olunmuş hesabat müzakirə edilib, təklif və tövsiyələr təhlil olunub, tövsiyələrin icrası ilə bağlı görülən işlər haqqında məlumat verilib.

Eyni zamanda, bu səfər TKTA-nın mandatını təqdim etmək və təcrübələri bölüşmək məqsədilə geniş təqdimat etmək imkanı yaradıb. Bu cür imkanlar agentliklər arasında qarşılıqlı anlaşma və əməkdaşlıq üçün möhkəm zəmin yaratmağa xidmət edir. Təcrübə bir daha sübut etdi ki, həmkarlarla bilik və strukturlaşdırılmış təcrübə mübadiləsi milli keyfiyyət təminatı sistemlərinin inkişafına xidmət edir.

**Nigar Əsgərova və Firuzə Məmmədzadə**
**Akkreditasiya və lisenziya şöbəsinin əməkdaşları**

## Milli Aviasiya Akademiyasında "Özünütəhlil Hesabatının hazırlanması" mövzusunda təlim

TKTA tərəfindən 8–9 iyul tarixlərində ATM-lərə metodoloji dəstək göstərilməsi çərçivəsində Milli Aviasiya Akademiyasının(MAA) əməkdaşları və Özünütəhlil Komissiyasının üzvləri üçün "Özünütəhlil Hesabatının hazırlanması" mövzusunda təlim təşkil olunub.





Təlim zamanı akkreditasiya qiymətləndirmə istiqamətləri və meyarları ətraflı şəkildə təqdim edilib, nümunələr əsasında izahlar verilib və qiymətləndirmə indikatorları ilə bağlı iştirakçıların sualları cavablandırılıb. Təlim TKTA-nın Təlim və metodologiya şöbəsinin əməkdaşı Vəfadar Rizvanlı tərəfindən aparılıb.

## Milli Aviasiya Akademiyasında sertifikatların təqdimat mərasimi



9 iyul 2025-ci il tarixində MAA-nın inzibati binasında TKTA-nın təşkil etdiyi təlimləri müvəffəqiyyətlə tamamlayan akademik və inzibati heyət üzvlərinə sertifikatlar təqdim olunub. Qeyd edək ki, təlimlər "İnstitusional akkreditasiya zamanı özünütəhlilin aparılması və hesabatların tərtibi qaydaları", "Ali təhsil müəssisəsinin institusional akkreditasiya üzrə qiymətləndirmə meyarları" və "Sillabusların tərtibi, təlim nəticələrinin formalaşdırılması və qiymətləndirilməsi qaydaları" mövzularına həsr edilib.

Təqdimetmə mərasimində TKTA-nın İdarə Heyətinin sədri Tural Əhmədov və MAA-nın birinci prorektoru, tədris işləri üzrə prorektoru Ədalət Səmədov vurğulayıblar ki, bu cür təlimlər ATM-in daxili potensialını gücləndirməklə yanaşı, onların beynəlxalq standartlara uyğunlaşmasına və təhsildə keyfiyyət mədəniyyətinin formalaşmasına töhfə verir.

Daxili və xarici keyfiyyət təminatı üzrə metodoloji dəstəyin göstərilməsi TKTA-nın əsas fəaliyyət istiqamətlərindəndir və ATM-lərdə keyfiyyət standartlarının yüksəldilməsinə və beynəlxalq tələblərə uyğunlaşmasına xidmət edir.





# Ali təhsildə institusional və proqram akkreditasiyası üzrə yeni meyarların müzakirəsi

Akkreditasiya Komissiyalarının hazırladığı Yekun Hesabatlara ATM-lər və ekspertlər tərəfindən təqdim edilmiş rəylər əsasında TKTA tərəfindən aparılan təhlillər göstərmişdir ki, “Ali təhsil müəssisəsinin institusional akkreditasiyası üzrə qiymətləndirmə meyarları” və “Ali təhsil müəssisəsinin proqram akkreditasiyası üzrə qiymətləndirmə meyarları” sənədlərində oxşar məzmun daşıyan və ya eyni istiqamətdə təhlil tələb edən indikatorların mövcudluğu o cümlədən, indikatorların sayının çox olması səbəbindən Yekun Hesabatlar yüklənmiş hesab olunur. Bu isə qiymətləndirmə prosesinin çevikliyinin təmin olunmasına və qiymətləndirmənin nəticəyönümlülüyünə mənfi təsir göstərir. Müəyyən edilmiş bu uyğunsuzluqların aradan qaldırılması məqsədilə sözügedən meyarlar yerli və beynəlxalq təcrübələr dərindən öyrənilərək, eləcə də ESG 2015 sənədinin tələblərinə uyğun şəkildə yenidən hazırlanıb. Yenilənmiş sənədlərdə meyarların sayı optimallaşdırılıb, məzmun strukturlaşdırılıb və qiymətləndirmə rubrikləri əlavə edilməklə ekspertlərin işinin həm metodoloji, həm də praktik baxımdan sadələşdirilməsi təmin edilib.



Cari ilin avqust-sentyabr aylarında ATM nümayəndələri, akkreditasiya qiymətləndirilməsi üzrə ekspertlər, tələbələr və digər maraqlı tərəflərin iştirakı ilə Agentlikdə qiymətləndirmə meyarlarının yeni redaksiyasına dair müzakirələr təşkil edilib. Görüşlərdə ATM, dövlət qurumları, əmək bazarı və təhsilalanları təmsil edən 70-dən çox ekspert iştirak edib.

Müzakirələr zamanı meyarların ATM-lərin daxili keyfiyyət təminatı sistemlərinə inteqrasiyası, beynəlxalq tələblərlə uyğunluğu və milli kontekstdə tətbiq perspektivləri ətraflı şəkildə nəzərdən keçirilib. Ekspertlər, yeni yanaşmanı müsbət qiymətləndirərək təkmilləşdirməyə dair bir sıra təklif və rəylər təqdim ediblər. Onların irad və tövsiyələri meyarların məzmununun daha sistemli və əhatəli formalaşdırılmasına mühüm töhfə verib.

Meyarların yenilənməsi Agentliyin fəaliyyətinin Avropa ali təhsil məkanında qəbul olunmuş keyfiyyət təminatı prinsipləri ilə uyğunlaşdırılması, qiymətləndirmə proseslərinin səmərəliliyinin artırılması, həmçinin TKTA-nın beynəlxalq əməkdaşlığının genişləndirilməsi və ENQA-ya tamhüquqlu üzvlüyün əldə olunması istiqamətində həyata keçirdiyi fəaliyyətlərin tərkib hissəsi kimi xüsusi strateji əhəmiyyət daşıyır. Bu baxımdan, yeni qiymətləndirmə meyarlarının hazırlanması və tətbiqi, ali təhsildə keyfiyyət təminatı sisteminin inkişafı istiqamətində atılmış ən mühüm praktik və institusional addımlardan biri hesab edilə bilər.





## Media nümayəndələri üçün brifinq




16 sentyabr 2025-ci il tarixində TKTA-nın İdarə Heyətinin sədri Tural Əhmədovun media nümayəndələri üçün yeni tədris ilinin başlanması və cari ilin ilk 9 ayı ərzində görülmüş işlərlə bağlı brifinqi keçirilib.

Agentliyin İdarə Heyətinin sədri Tural Əhmədov TKTA-nın fəaliyyət istiqamətləri barədə ətraflı çıxış edərək, 2025-ci ilin keçən dövrü ərzində ümumilikdə 6 ATM-də institusional akkreditasiya qiymətləndirilməsi, 7 ATM-də "Məktəbəqədər təhsil" ixtisası üzrə proqram akkreditasiya qiymətləndirilməsinin keçirildiyini qeyd edib.

O, həmçinin bu dövr ərzində 3480 müraciət üzrə xaricdə əldə olunan kvalifikasiyanın ekspertizasının və 226 müraciət üzrə isə qeyri-formal və informal təhsil sahəsində tanınmanın həyata keçirildiyini bildirib. Əlavə olaraq, xaricdə əldə olunan kvalifikasiyaların tanınması ilə bağlı 2989 müraciət üzrə müsbət, 491 müraciət üzrə mənfi rəy verildiyi qeyd edilib.

İdarə Heyətinin sədri 2025-ci təqvim ilinin II yarısında 5 ali və bir peşə təhsili müəssisəsində - Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası, Azərbaycan Texnologiya Universiteti, Azərbaycan Dövlət Aqrar Universiteti, Azərbaycan Dillər Universiteti, Gəncə Dövlət Universiteti (təkrar akkreditasiya), Sənaye və İnnovasiyalar üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzində institusional akkreditasiya qiymətləndirilməsi, həmçinin "Məktəbəqədər təhsil" ixtisası üzrə 7 ATM-də - Odlar Yurdu Universiteti, Sumqayıt Dövlət Universiteti, Bakı Slavyan Universiteti, Azərbaycan Dillər Universiteti, Bakı Qızlar Universiteti, Naxçıvan Müəllimlər İnstitutu və Azərbaycan Dövlət Pedaqoji Universitetinin Şamaxı filialında proqram akkreditasiya qiymətləndirilməsinin keçiriləcəyini qeyd edib.

Bundan əlavə o qeyd edib ki, 2025-ci təqvim ilinin II yarısında 3 ATM-də - Gəncə Dövlət Universiteti, Naxçıvan Müəllimlər İnstitutu, Azərbaycan Dövlət Pedaqoji Universitetinin Şamaxı filialında "İbtidai sinif müəllimliyi" ixtisası üzrə təkrar proqram akkreditasiya qiymətləndirilməsi keçiriləcək.



Tural Əhmədov cari ilin sözügedən dövrü ərzində vətəndaşlar tərəfindən Agentliyə ünvanlanan 8425 müraciətin müvafiq qaydada cavablandırıldığını, həmçinin bu müddət ərzində qrafikə uyğun olaraq, TKTA-nın İdarə Heyətinin rəhbərliyi və struktur bölmə rəhbərləri tərəfindən 451 vətəndaş qəbulunun həyata keçirildiyini qeyd edərək, vətəndaş məmnunluğunun prioritet təşkil etdiyini vurğulayıb.

## Ali təhsildə keyfiyyət təminatı üzrə II ADA Simpoziumu





25-26 sentyabr 2025-ci il tarixlərində ADA Universitetinin təşkilatçılığı və TKTA-nın tərəfdaşlığı ilə ali təhsildə keyfiyyət təminatına həsr olunmuş II ADA Simpoziumu keçirilib.

Simpoziumda ADA Universitetinin prorektoru Elkin Nurməmmədov, TKTA-nın İdarə Heyətinin sədri Tural Əhmədov, bir sıra ATM-lərin akademik və inzibati heyəti, həmçinin yerli və beynəlxalq ekspertlər iştirak edib. TKTA-nın İdarə Heyətinin sədri Tural Əhmədov TKTA-nın fəaliyyəti çərçivəsində institusional və proqram akkreditasiya qiymətləndirilməsindən irəli gələn çağırışlar və gözləntilərə dair təqdimat edib.

Tədbirdə çıxış edən Almaniya Federativ Respublikasının Potsdam Universitetinin Keyfiyyətin İnkişafı Mərkəzinin rəhbəri Frank Niedermeier daxili və xarici keyfiyyət təminatının əlaqələndirilməsi və tədris proqramlarının keyfiyyətinin təminatı üzrə təcrübəsini bölüşüb.

ADA Universitetinin Keyfiyyət Təminatı və Akkreditasiya şöbəsinin rəhbəri Maurus Roller tədris və öyrənmədə keyfiyyət yanaşmaları və layihə idarəçiliyi mövzularına toxunaraq iştirakçılara məlumat verib. Panel müzakirəsində beynəlxalq ekspert qismində Vistula Universitetinin doktorantura proqramının rəhbəri Prof. Dr. Şəhriyar Muxtarov, Azərbaycan Turizm və Menecment Universitetinin prorektoru Dr. Araz Aslanlı, TKTA-nın akkreditasiya və lisenziya şöbəsinin müdiri Dr. Samir Quliyev, işəgötürən qismində “AzMade group” şirkətinin insan resursları departamentinin müdiri Eldəniz Quliyev və tələbə nümayəndəsi olaraq Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının tələbəsi Nəzrin Abdullayeva iştirak edərək xarici keyfiyyət təminatının həyata keçirilməsindən irəli gələn çağırışlar və perspektivlər ətrafında fikir mübadiləsi aparıb. Qeyd edək ki, Simpoziumun keçirilməsində məqsəd ölkə üzrə keyfiyyət təminatı sahəsində çalışan ali təhsil müəssisələrinin nümayəndələrini bir araya gətirərək fikir və təcrübə mübadiləsi üçün platforma yaratmaqdan ibarət olub.





# İkitərəfli görüşlər

## MDU heyəti TKTA-da

01 oktyabr 2025-ci il tarixində TKTA-nın İdarə Heyətinin sədri Tural Əhmədovla Mingəçevir Dövlət Universitetinin (MDU) rektoru Anar Eminov arasında görüş keçirilib. Görüşdə, həmçinin TKTA-nın və MDU-nun struktur bölmə rəhbərləri iştirak ediblər.




İdarə Heyətinin sədri TKTA ilə ATM-lər arasında əməkdaşlığın genişlənməsinin ölkəmizdə təhsil sisteminin inkişafı baxımından vacib olduğunu bildirib. O, TKTA-nın keyfiyyət təminatı sahəsində beynəlxalq standartlara uyğunlaşma istiqamətində gördüyü işlərdən danışaraq, bu prosesin ATM-lərin rəqabətqabiliyyətini artıran əsas amillərdən biri olduğunu vurğulayıb.

# Media ilə iş və vətəndaş məmnunluğu

## Media ilə iş

**10 iyul 2025-ci il tarixində AzTV telekanalında TKTA tərəfindən Bərdə şəhərində təşkil edilmiş peşə ixtisasları üzrə qeyri-formal və informal yollarla əldə edilən bilik, bacarıq və təcrübələrin qiymətləndirməsi və tanınması barədə reportaj efirə gedib.**

https://tinyurl.com/3jzehshh







**21 iyul 2025-ci il tarixində TKTA-nın İdarə Heyətinin sədri Tural Əhmədov "Azərbaycan" radiosunun canlı efirində çıxış edib.**

https://tinyurl.com/y4cnthvw

**23 iyul 2025-ci il tarixində TKTA-nın İdarə Heyətinin sədri Tural Əhmədov TV1 televiziyasının "Böyük tənəffüs" proqramının qonağı olub.**

www.youtube.com/watch?v=ly2K68LKT1g



## Media ilə iş




1 avqust 2025-ci il tarixində Azərtacda TKTA-nın şöbə müdiri Rövşən Nəzərovun xaricdə təhsillə bağlı diqqət edilməli məqamlar barədə müsahibəsinin yer aldığı video-süjet efirə getmişdir.

www.youtube.com/watch?v=826eMhNzZmI




Agentliyin şöbə müdiri Elnur Xəlilovun xaricdə əldə edilən kvalifikasiyaların tanınması ilə bağlı 26 və 29 avqust tarixlərində ATV və Space telekanallarında müsahibələri yayımlanıb.

https://tinyurl.com/49jtdsjy
https://tinyurl.com/uden9tzn







27 avqust 2025-ci il tarixində REAL televiziyasında xarici kvalifikasiyaların tanınması haqqında video-süjet efirə getmişdir.
https://tinyurl.com/v7ahnfyu

28 avqust 2025-ci il tarixində Agentliyin İdarə Heyətinin sədri Tural Əhmədov İctimai TV-nin "Xəbərimiz Var" verilişinə müsahibə verib.
https://tinyurl.com/4wr6camt
https://tinyurl.com/432m4ubs







28 avqust 2025-ci il tarixində İctimai televiziyada TKTA-nın şöbə müdiri Rövşən Nəzərovun xarici dövlətlərin ali təhsil müəssisələrindən əldə edilən kvalifikasiyaların tanınması ilə bağlı müsahibəsi yayımlanıb.

https://tinyurl.com/mt26u5bh

## Media ilə iş

**16 sentyabr 2025-ci il tarixində TKTA-nın İdarə Heyətinin sədri Tural Əhmədovun media nümayəndələri üçün yeni tədris ilinin başlanması və cari ilin ilk doqquz ayı ərzində görülən işlərlə bağlı brifinqi keçirilib. Brifinqə aid sosial şəbəkələrdə və televiziya kanallarında yayımlanan video-süjetləri aşağıdakı keçidlər vasitəsilə izləyə bilərsiniz.**

https://tinyurl.com/wkfrywb5
https://tinyurl.com/3bz5u7s5
https://tinyurl.com/29tesr2p
https://tinyurl.com/yh3w29y5
https://tinyurl.com/bdec873z
https://tinyurl.com/2r4kfpr3
https://tinyurl.com/nhfxj5fa







## Vətəndaş qəbulu:

2025-ci ilin III rübü ərzində vətəndaş müraciətlərinin cavablandırılması məqsədilə aylıq əsasda sosial şəbəkə hesablarında əvvəlcədən elan edilməklə, Agentliyin rəhbərliyi, eyni zamanda struktur bölmə rəhbərləri tərəfindən vətəndaşların qəbulu təşkil edilib.

TKTA-nın İdarə Heyətinin sədri Tural Əhmədov qəbula yazılmış vətəndaşları dinləyib, onların müraciətlərinin araşdırılması və qaldırılan məsələlərin qanunvericiliyə uyğun həlli istiqamətində müvafiq tapşırıqlar verib. Qəbul zamanı vətəndaşlar əsasən, xarici dövlətlərin ATM-lərindən əldə etdikləri kvalifikasiyaların tanınması ilə bağlı müraciət ediblər.

Qeyd edək ki, cari ilin iyul-sentyabr ayları üzrə qəbul cədvəlinə uyğun olaraq, Agentliyin rəhbərliyi, eyni zamanda struktur bölmə rəhbərləri tərəfindən ümumilikdə **120** vətəndaşın qəbulu həyata keçirilib.

Məlumat üçün bildiririk ki, vətəndaşlar qəbula yazılmaq üçün 146-8 Çağrı Mərkəzinə zəng edərək qeydiyyatdan keçə bilərlər.

Bundan əlavə, iyul ayı **171**, avqust ayı **136**, sentyabr ayı **136** olmaqla, Agentliyə ümumilikdə vətəndaş, qurum və təşkilatlardan **443** müraciət daxil olub.







## Azərbaycan universitetlərində keyfiyyət mədəniyyətinə yeni yanaşmalar

**Azərbaycan Dövlət Pedaqoji Universiteti**



# Eldar Aslanov

Tədris işləri üzrə prorektor,dosent

Azərbaycanda ali təhsildə keyfiyyət sahəsində dövlət siyasəti və strategiyasında keyfiyyəti ölçməklə bağlı yeni yanaşmaların tətbiqi və ali təhsil sahəsində rəqabətin sürətlə artması ali təhsildə keyfiyyət mədəniyyətini əvvəllər olmadığı qədər aktuallaşdırmışdır. Hər bir ölkədə olduğu kimi, Azərbaycan Respublikasının ali təhsil məkanında insan kapitalının formalaşması, onun ölkənin ehtiyaclarına uyğunluğu və kadr hazırlığında milli maraqların qorunması kontekstində ali təhsildə keyfiyyətə yanaşmanın prinsip və qaydalarının dəqiqləşdirilməsi ciddi əhəmiyyət kəsb edir.

Ali təhsildə keyfiyyətə baxışın formalaşdırılması üçün keyfiyyətin artırılmasına yönəlmiş layihələrin icrası, ali təhsildə keyfiyyətin təhsilə bağlı strateji sənədlərin əsas müddəalarına çevrilməsi təhsil ictimaiyyəti tərəfindən təqdirlə qarşılanmaqdadır. Bunun nəticəsidir ki, Azərbaycan Respublikası Prezidentinin 29 dekabr 2019-cu il tarixində imzaladığı müvafiq Fərmana əsasən, Təhsil Nazirliyinin Akkreditasiya və Nostrifikasiya İdarəsinin əsasında Təhsil Nazirliyinin tabeliyində publik hüquqi şəxs statusu olan TKTA yaradılıb. Agentlik keçən dövr ərzində ümumilikdə təhsildə, xüsusilə isə ali təhsil sahəsində keyfiyyət mədəniyyətinin formalaşması istiqamətində mühüm işlər görmüş və təhsilin keyfiyyətinin müstəqil qiymətləndirilməsi sahəsində peşəkar quruma çevrilmişdir. TKTA beynəlxalq təcrübəyə uyğun olaraq yeni yanaşma təklif edərək ölkədə ilkin olaraq ali təhsildə keyfiyyət mədəniyyətinin formalaşmasına başlamışdır. Yeni yanaşmanın tətbiqinin bariz nümunələrindən biri Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin Kollegiyasının 30 sentyabr 2022-ci il tarixli qərarı ilə təsdiq edilmiş “Ali təhsil müəssisəsinin institusional akkreditasiyası üzrə qiymətləndirmə Meyarları” və “Ali təhsil müəssisəsinin proqram akkreditasiyası üzrə qiymətləndirmə Meyarları” sənədləridir. Bu sənədlərin tətbiqi çərçivəsində institusional və proqram akkreditasiyalarından keçmiş ATM nümayəndəsi kimi, həmçinin digər universitetdə institusional akkreditasiya prosesinin iştirakçısı kimi, qeyd edə bilərəm ki, bu yanaşma ölkənin ali təhsil ocaqlarında institusional baxışın, özünüqiymətləndirmə bacarıqlarının və keyfiyyət mədəniyyətinin müasir formalarının təşəkkül tapması prosesinə ciddi təkan vermişdir.

TKTA-nın şəffaflıq prinsiplərinə uyğunlaşmış və özünün sosial media resurslarında ictimaiyyət üçün açıq olan ayrı-ayrı ATM-lərin institusional və müxtəlif ixtisasların proqram akkreditasiya hesabatları ilə tanışlıq, bütün cəhətləri ilə 6 il ərzində keçilmiş yolun müvəffəqiyyətini sübut edir. Hər bir ATM-in müxtəlif istiqamətlər üzrə hərtərəfli analizi, konkret tövsiyələrin verilməsi, verilmiş tövsiyələr əsasında ATM-lər tərəfindən öz daxili fəaliyyət planlarının formalaşdırılması, o planların müntəzəm monitorinqi və hesabatlılığı bir tərəfdən ATM-lərin institusional və proqram səviyyəsində hərtərəfli inkişafına rəvac verirsə, digər tərəfdən isə ATM-lərarası qarşılıqlı öyrənməni və dərslər çıxarılmasını təbii olaraq təşviq edir. Bu mürəkkəb proseslər isə öz nəticəsində ATM-lərdə daxili keyfiyyət mədəniyyətinin tədricən formalaşmasına təkan verir.

Müvafiq akkreditasiya hesabatları paylaşılan ATM-lərin fərqli tarixə, miqyasa, mirasa, coğrafiyaya, sahəyə, başlanğıc nöqtələrinə, institusional imkanlara və inkişaf meyillərinə malik olduqlarını unutmamaqla birlikdə, vahid meyarlarla qiymətləndirilməsi və bunun Azərbaycan ali təhsil tarixində ilk dəfə və qeyd olunan formada tətbiqi mühüm nəticələr çıxarmağa imkan verir. Düşünürəm ki, ATM-lərin institusional akkreditasiyasının bir-neçə ildən sonra ikinci dəfə keçirilməsi bizə bu proses nəticəsində universitetlərin keyfiyyət indikatorlarında ölçüləbilinən dəyişiklikləri, ATM-lərin təşkilati transformasiyasını izləmək üçün geniş elmi tədqiqat imkanları verəcəkdir.

Hazırda ATM-lərin mövcud olan bütün dataları, o cümlədən öz məzunları, onların məşğulluğu, tələbə qəbulu nəticələri, ixtisaslar üzrə keçid ballarını, bakalavr məzunlarının magistratura, dövlət qulluğu, o cümlədən doktorantura təhsilinə keçid nəticələrini izləməsi, nəticə etibarilə keyfiyyətin mühüm göstəricilərindən biri olan məzunların məşğulluq hesabatlarını paylaşmaları, bu sahədə Dövlət Məşğulluq Agentliyi ilə qarşılıqlı fəaliyyəti, ayrı-ayrı ATM-lərdə daxili keyfiyyətə nəzarət mexanizmlərinin qurulması, qlobal elmmetrik bazalarında yüksək istinadlı nəşrlərin izlənməsi və nəticələrin mükafatlandırılması, beynəlxalq universitet reytinq qurumları ilə əlaqələrin güclənməsi və son illərdə universitetlərin beynəlxalq reytinqlərdə əldə etdiyi nəticələr həm də keyfiyyətə yeni yanaşmanın tətbiqinin nəticələridir.

# Ekspert rəyi

## Azərbaycan universitetlərində keyfiyyət mədəniyyətinə yeni yanaşmalar

### Azərbaycan Dövlət Pedaqoji Universiteti




**Eldar Aslanov**

Tədris işləri üzrə prorektor,dosent


Təşkilat tipləri arasında universitetlər sosioloji nöqteyi-nəzərdən transformasiyası ən çətin olan sosial sistem nümunələridir. Bu çətinliyi şərtləndirən amillər çoxdur və burada bütün məsələlər ölçülə bilən və mexaniki həll oluna bilən proseslər deyil. Cəmiyyət həyatının fəal, intellektual üzvü və çoxtərəfli bağlarla əlaqələndirilmiş sosial parçası olan universitelərin düşünülmüş şəkildə tranformasiyasını həyata keçirmək, universitet liderlərindən səbr və təkidlə, prinsipial və uzunmüddətli səylər tələb etməklə yanaşı, qeyri-müəyyənliklərin kifayət qədər çox olduğu müasir dünyanın çağırışlarına da düzgün cavab verməyi zəruri edir. TKTA-nın Akkreditasiya Meyarlarının təkmilləşdirilməsi ilə bağlı yeni təşəbbüsləri bu mənada düzgün əks əlaqə nümunəsidir.

Ona görə də Azərbaycan universitetlərində keyfiyyətə yeni yanaşmaların tətbiqi qlobal baxışlarla bərabər, süni zəka və informasiya texnologiyalarının meydan açdığı qeyri-formal təhsil çağırışlarına da elmi reaksiya tələb edir.

Nəticə etibarilə son illərdə ölkənin ali təhsil ocaqlarında keyfiyyətə yeni yanaşmaların tətbiqini real olaraq müşahidə etsək də, bu sahədə boşluqları, yenilikləri və çağırışları müəyyən edən tədqiqatların həyata keçirilməsi və elmi ümumiləşdirmələrin aparılmasına ciddi ehtiyac vardır.




Bu mənada Azərbaycan Dövlət Pedaqoji Universiteti və Türkiyənin Çankaya Universitetinin birgə təşkilatçılığı ilə, Türkiyənin Ali Təhsilin Keyfiyyəti Şurası (YÖKAK) və TKTA-nın dəstəyi ilə 27-28 noyabr 2025-ci il tarixlərində Bakı şəhərində təşkil olunacaq "Ali Təhsildə Keyfiyyət üzrə Beynəlxalq Konfrans (IQC)" yaxşı fürsətdir. Ümid edirəm ki, əsas məqsədi ali təhsildə keyfiyyət təminatı, akkreditasiya, tədris və öyrənmə prosesləri, tələbə yönümlü təhsil, rəqəmsal transformasiya və institusional keyfiyyət idarəçiliyi kimi sahələrdə çalışan alimləri, tədqiqatçıları, pedaqoqları və qərarvericiləri bir araya gətirərək nəzəri bilik, tədqiqat nəticələri və yaxşı təcrübələrin paylaşılmasına platforma olan bu konfrans ölkədə ali təhsildə keyfiyyətə elmi baxışların ciddi formada ortaya qoyulmasına təkan verəcəkdir.

## İnstitusional akkreditasiyanın ali təhsil sisteminin inkişafına töhfəsi

**Azərbaycan Texniki Universiteti**



# Fərqanə Musayeva

**"Sənaye iqtisadiyyatı və menecment" fakültəsinin dekanı, dosent**

ATM-lər yalnız peşəkar kadrların hazırlanmasını təmin etmir, həm də cəmiyyətin sosial tərəqqisinin və iqtisadi inkişafının mühüm lokomotivi kimi çıxış edir. Elmi-tədqiqat mərkəzləri funksiyasını daşıyan universitetlər innovasiyaların tətbiqi vasitəsilə iqtisadiyyatın yeniliklərə açıq olmasına və qlobal bazarda rəqabət gücünün artmasına töhfə verirlər.

Bu baxımdan, hazırda dövlət və özəl ATM-lərin fəaliyyətinin genişləndirilməsi, əhalinin ali təhsillə əhatə olunma səviyyəsinin yüksəldilməsi əsas prioritet istiqamətlərdən hesab olunur. Gənclərin ATM-lərdə təhsil almaq imkanlarının təmin edilməsi isə onların praktiki bilik və bacarıqlara yiyələnən, yüksək ixtisaslı peşəkarlar kimi yetişməsini təmin edən strateji hədəflərdən biridir.

İnstitusional akkreditasiya prosesi universitetlərin təhsil xidmətləri məkanında rəqabət qabiliyyətini artırmaqla yanaşı, ali məktəblərdə daxili keyfiyyət təminatı sisteminin və davamlı keyfiyyət mədəniyyətinin formalaşmasına əhəmiyyətli töhfə verir. İnstitusional akkreditasiya meyarları universitetlərə keyfiyyət təminatı üzrə standart və təlimatlarını nəzərdən keçirmək, tədris prosesinin və akademik fəaliyyətin keyfiyyət göstəricilərini təsnifləşdirmək, tədris keyfiyyətini və tələbələrin bilik əldə etməsini qiymətləndirmək imkanı yaradır.

Akkreditasiya zamanı universitetin missiyası və strateji hədəfləri real göstəricilər əsasında qiymətləndirilir. Bu isə ali məktəbləri öz inkişaf strategiyalarını daha konkret, ölçüləbilən və nəticəyönlü şəkildə formalaşdırmağa sövq edir.

Eyni zamanda, daxili idarəetmə strukturlarının fəaliyyəti hərtərəfli nəzərdən keçirilir, müvafiq rəy və tövsiyələr təqdim olunur. Nəticədə universitetlər qərarvermə proseslərində daha açıq, hesabatlı və şəffaf idarəetmə prinsiplərinə əsaslanmağa təşviq olunur.

Akkreditasiya prosesi universitetlər arasında qarşılıqlı öyrənmə, yaxşı təcrübələrin paylaşılması və əməkdaşlıq üçün əlverişli mühit yaradır. Yerli və beynəlxalq ekspertlərin iştirakı yeni idarəetmə və tədris yanaşmalarının tətbiqinə şərait yaradır, universitetlər arasında təcrübə mübadiləsini stimullaşdırır.

Nəhayət, institutsional akkreditasiya yalnız universitetlərin daxili idarəetmə, tədris proqramları, professor-müəllim heyəti və maddi-texniki bazasının keyfiyyət standartlarına uyğunlaşmasını təmin etmir, həm də cəmiyyət üçün mühüm sosial faydalar yaradır. Akkreditasiya nəticələrinin ictimaiyyət üçün əlçatan olması, təhsil müəssisələrinin fəaliyyətində hesabatlılığı təmin edir, cəmiyyətin ali təhsil sektoruna inamını artırır və ali təhsilin sosial nüfuzunun yüksəlməsinə töhfə verir.

# Ali təhsil müəssisələrində akkreditasiyanın rolu və dayanıqlı inkişaf üçün əhəmiyyəti

**Sumqayıt Dövlət Universiteti**



## Günel Paşayeva

**Filologiya fakültəsinin dekanı, filologiya üzrə fəlsəfə doktoru, dosent**

Müasir dövrdə ali təhsil sistemində keyfiyyətin qorunması və yüksəldilməsi yalnız daxili nəzarət mexanizmləri ilə məhdudlaşmamalıdır. İnstitusional və proqram akkreditasiyası ATM-lərin fəaliyyətini obyektiv meyarlar əsasında qiymətləndirən, onların zəif və güclü tərəflərini üzə çıxaran, eyni zamanda inkişaf üçün yol xəritəsi təqdim edən əsas vasitələrdən biridir. Bu proses hesabatlılıq və şəffaflığı təmin edir, həm də tədris və idarəetmə mədəniyyətində müsbət dəyişikliklərə təkan verir.

İnstitusional akkreditasiya ATM-in bütün struktur vahidlərini – idarəetmədən pedaqoji heyətə, maddi-texniki bazadan elmi-tədqiqat fəaliyyətinə qədər əhatə edən geniş bir qiymətləndirmə çərçivəsidir. Bu proses vasitəsilə universitetlər öz missiyalarının standartlara və gözləntilərə uyğunluğunu yoxlamaq, kadr hazırlığı və elmi fəaliyyət sahəsində işlək mexanizmlər formalaşdırmaq imkanı qazanırlar. İnstitusional akkreditasiya – universitetin bir sistem kimi qiymətləndirilməsi üçün əvəzsiz alətdir.

Bu prosesi həm də uğurlu bir inkişaf platforması adlandırmaq mümkündür. Belə ki, akkreditasiya zamanı obyektiv qiymətləndirmə aparılır, nəticələr isə universitetlərdə keyfiyyət mədəniyyətinin formalaşmasına və sosial iştirakçılığın güclənməsinə təsir göstərir. İnstitusional akkreditasiya eyni zamanda tələbə qəbulu, maliyyə resurslarının cəlbi və beynəlxalq əməkdaşlıq imkanlarının genişlənməsi baxımından ATM-lərin rəqabətədavamlılığını artırır.

Tədrisin məzmun və nəticələrinin dəyərləndirilməsini təmin edən proqram akkreditasiyası isə birbaşa təhsil proqramlarının strukturu, məqsəd və nəticələri, məzmunu, tədris metodları, qiymətləndirmə mexanizmləri və akademik heyətin peşəkarlığını əhatə edir. Bu proses universitetləri tədris proqramlarını daha sistemli, məqsədyönlü və tələbəyönümlü şəkildə qurmağa sövq edir.

Təlimlərdə iştirak edən ekspert, institusional akkreditasiyası təşkil olunmuş universitetin əməkdaşı, akkreditasiya komissiyalarında üzv və hazırda proqram akkreditasiyasına hazırlaşan fakültə rəhbəri kimi akkreditasiya prosesinin bütün mərhələlərinə yaxından tanışlıq təcrübəsi mənə əminliklə deməyə əsas verir ki, akkreditasiya sadəcə ekspertlərin, universitet və proqram rəhbərlərinin işi deyil – o, bütöv bir kollektivin vizyonunu formalaşdıran, tələbə və əməkdaşlarda yeni baxış bucağı yaradan, keyfiyyət mədəniyyətinin yayılmasına birbaşa xidmət edən prosesdir.

Bu prosesdə bir dəfə iştirak edən əməkdaş artıq universitetin missiyasını, hədəf və prioritetlərini mənimsəyərək addımlarını da bu istiqamətdə atmağa çalışır. O anlayır ki, müasir dövrdə multidisiplinar yanaşma ilə sənaye, texnologiya və sosial inkişaf sahələrinə töhfə verəcək mütəxəssislərin hazırlanması universitetin başlıca missiyasıdır və o fəaliyyətini bu istiqamətdə qurmalıdır.

Akkreditasiyanın ən mühüm cəhətlərindən biri də iş dünyası ilə ATM-ləri yaxınlaşdırmağı bacarmasıdır. Bu, tələbələrin nəticəyönümlü, əmək bazarında rəqabətədavamlı kadr kimi yetişdirilməsində əvəzsiz rol oynayır. Akkreditasiya mexanizmləri kadr hazırlığı məsuliyyətini təkcə universitetin deyil, eyni zamanda işəgötürənlərin də üzərinə qoyur. Bir vaxtlar işəgötürənlər zəif kadr hazırlığına görə universitetləri günahlandırırdısa, bu gün artıq anlayırlar ki, əmək bazarının tələb etdiyi kompetensiyaları dəqiq təqdim etmədən uyğun mütəxəssis hazırlanması mümkün deyil. İşəgötürənlərlə görüş və müzakirələr əvvəlcə formal tələb kimi görünürdüsə, indi təbii və davamlı prosesə çevrilməkdədir.

Beləliklə, akkreditasiya artıq universitet divarlarını aşaraq bütöv bir cəmiyyətin keyfiyyət təminatı sisteminə çevrilir. Bu sistem həm ATM-lərin, həm də iş dünyasının məsuliyyətini paylaşaraq, ölkənin sosial-iqtisadi inkişafına, peşəkar insan kapitalının formalaşmasına birbaşa töhfə verir.

Həm institusional, həm də proqram akkreditasiyası ali təhsildə şəffaflığı, hesabatlılığı və tələbə hüquqlarının qorunmasını gücləndirir, universitetləri beynəlxalq rəqabətə hazırlayır. Bu proses nəticəsində təhsil müəssisələri öz fəaliyyətlərini təkcə standartlara uyğunlaşdırmır, həm də tədrisin mahiyyətini anlayaraq onu daim yeniləyir və gələcəyə hazırlayırlar.

Başqa sözlə, akkreditasiya universitetlər üçün yalnız tələblərin yerinə yetirilməsi deyil, eyni zamanda öz resurs və potensiallarını qiymətləndirərək davamlı və dayanıqlı inkişaf yolunu müəyyənləşdirmək üçün bir alət, keyfiyyət mədəniyyətinin ATM-lərdən cəmiyyətə yayılmasına xidmət edən əvəzsiz mexanizmdir.

## Keyfiyyət təminatı sisteminin təkmilləşdirilməsinin təhsilin inkişafındakı rolu

Bakı Dövlət Universiteti



# Asiman İlyasov

Rektorun keyfiyyət təminatı üzrə müşaviri

Təhsilin istehlak və investisiya olmaqla, iki mühüm xüsusiyyəti mövcuddur. Fərdin həyat boyu etdiyi təhsil xərcləri bir tərəfdən investisiya xüsusiyyətlərinə malikdir, digər tərəfdən isə fərdi məmnuniyyətin təmin edilməsi və ehtiyacların ödənilməsi baxımından istehlak xüsusiyyətlərini də daşıyır. Bu baxımdan təhsil müəssisələrində kadrların əmək bazarının tələblərinə uyğun hazırlanması, onlara verilən bilik və bacarıqların iqtisadiyyatda tətbiq edilə bilməsi inkişafda olan ölkələr üçün xüsusi əhəmiyyət kəsb edir.

Ölkələrdə keyfiyyətli təhsilə yatırılan sərmayə yalnız fərdlərin əmək fəaliyyətinin səmərəliliyini artırmaqla iqtisadiyyata töhfə vermir, həm də gəlir bölgüsündəki qeyri-tarazlığı aradan qaldıraraq sosial ədaləti gücləndirir. Buna görə də təhsilə qoyulan sərmayə bəşəri sərmayə adlandırılır. Bu sərmayə insanların davranışlarını dəyişməklə yanaşı, həm iqtisadi, həm də sosial inkişafa müsbət təsir göstərir. Beləliklə, təhsil və təhsil siyasəti iqtisadi və sosial inkişaf üçün strateji əhəmiyyət daşıyır. Azərbaycan Respublikasında məşğulluq sahəsində perspektiv inkişaf hədəflərindən biri əmək bazarında həm məşğul, həm də qeyri-məşğul əhalinin keyfiyyət göstəricilərinin yüksəldilməsidir. Bu məqsədə nail olmağın əsas yolu isə bütün təhsil pillələrində tədris prosesini həyata keçirən təhsil müəssisələrinin kadr hazırlığını əmək bazarının tələblərinə uyğun təşkil etməsidir. Müəssisədaxili və müəssisəxarici keyfiyyət təminatı təhsil müəssisələrində əmək bazarının tələblərinə uyğun kadr hazırlığını təmin edən əsas planlaşdırma, tənzimləmə, nəzarət, motivasiya, idarəetmə və qiymətləndirmə vasitəsidir. Yerli qanunvericilik və normativ hüquqi aktlara əsasən, daxili keyfiyyət təminatı sistemi təhsil müəssisəsinin müvafiq sahələrdə və öz nizamnaməsinə uyğun fəaliyyətinin standartlara cavab verməsi, müasir tələblərə uyğun səmərəli tədris mühitinin formalaşdırılması, həmçinin özünütəhlil əsasında davamlı təkmilləşmənin təmin edilməsini nəzərdə tutur.

Bununla yanaşı, xarici keyfiyyət təminatı – yəni akkreditasiya – təhsil müəssisəsinin müvafiq sahələrdə fəaliyyətinin keyfiyyət göstəricilərinin, eləcə də daxili keyfiyyət təminatı sisteminin səmərəliliyinin qiymətləndirilməsi prosesidir. Belə ki, təhsil müəssisələrinin əmək bazarının tələblərinə uyğun kadr hazırlığı və daxili keyfiyyət təminatı sisteminin səmərəliliyinin təmini üçün sistemli və ölçülə bilən meyarlara əsaslanan xarici keyfiyyət təminatı sisteminin olması labüddür. Çünki təhsil müəssisələrində xarici keyfiyyət təminatı təhsilin keyfiyyətinin yüksəldilməsində mühüm amil hesab olunur. Onun əsas hədəflərindən biri rəqabət mühitinin formalaşdırılması və təhsilalanlara daha keyfiyyətli xidmətin göstərilməsidir.

Akkreditasiya, eyni zamanda, təhsil müəssisələrinə inam və etimadın formalaşmasına xidmət edir. Akkreditasiya olunmuş müəssisə və ya proqramlar barədə cəmiyyətin məlumatlandırılması isə maraqlı tərəflərin qərar qəbuletmə prosesində həmin müəssisəni oxşar qurumlarla müqayisə edərək seçim etməsinə şərait yaradır. Təhsil müəssisələrində səmərəli keyfiyyət təminatı sisteminin formalaşdırılması, onun işləkliyinin və davamlılığının təmin edilməsi müəssisələrin müvafiq nizamnamələrinə əsasən, onların daxili səlahiyyətinə aiddir. Təhsil müəssisələrində daxili keyfiyyət təminatını dəstəkləyən mühüm mexanizmlərdən biri olan akkreditasiyanın normativ-hüquqi bazasına nəzər yetirdikdə görmək olar ki, “Təhsil haqqında” Qanuna əsasən, təhsil müəssisəsinin akkreditasiyası onun fəaliyyətinin müəyyən olunmuş standartlara uyğunluğunu qiymətləndirmək məqsədilə aparılır və müəssisəyə növbəti 5 il müddətinə fəaliyyət göstərməsi üçün hüquqi təminat yaradır. Həmin Qanuna əsasən, təhsil müəssisələrinin akkreditasiyası xarici keyfiyyət təminatı prosesi kimi hər 5 ildən bir həyata keçirilir və təhsil müəssisəsinin təkrar akkreditasiyadan keçməməsi müvafiq qanunvericiliyə əsasən, onun lisenziyasının ləğvi və ya fəaliyyətinin dayandırılması üçün əsas hesab olunur. Təşkilati-hüquqi formasından və mülkiyyətindən asılı olmayaraq bütün təhsil müəssisələrinin xarici keyfiyyət təminatı üzrə səlahiyyətli qurum Təhsildə Keyfiyyət Təminatı Agentliyidir və Agentlik 2019-cu il 29 dekabr tarixli, 907 nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı ilə yaradılmışdır. Agentliyin yaradılması təhsildə keyfiyyətin təmin olunması və müasir standartlara uyğunlaşdırılması istiqamətində mühüm addım olmuşdur. Bununla yanaşı, Agentliyin akkreditasiya sahəsində fəaliyyətinin səmərəliliyinin artırılması məqsədilə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 28 sentyabr tarixli, 167 nömrəli qərarı ilə Akkreditasiya Qaydaları yeni redaksiyada qəbul edilmişdir. Bu yenilənmiş qaydalar təhsil müəssisələrinin həm institusional, həm də proqram səviyyəsində qiymətləndirilməsini təmin edərək, onların strateji inkişaf potensialını və əmək bazarının tələblərinə uyğunluğunu gücləndirir. Təhsil müəssisələrinin akkreditasiyası prosesinin istitusional və metodoloji olaraq təkmilləşdirilməsi və beynəlxalq standartlara uyğunlaşdırılması ölkədə təhsilin keyfiyyət təminatının səmərəliliyini artırmış, eyni zamanda təhsil müəssisələrinin idarəetmə, akademik və inzibati strukturlarının şəffaf və səmərəli fəaliyyət göstərməsini təmin etmişdir.

TKTA

Təhsildə Keyfiyyət Təminatı Agentliyi

tktaeduaz

tktaeduaz

tktaeduaz

TKTA

tktaeduaz

Çağrı Mərkəzi
146-8

info@tkta.edu.az

www.tkta.edu.az